# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 239/3** **25 yanvar 2013-cü il**

**Beynəlxalq audit standartların tətbiqi ilə əlaqədar əlavə tədbirlər haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.1-ci - "Müstəqil audit sahəsində beynəlxalq stan-dartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi" bəndinin icrasını təmin etmək və Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) üzvlük tələblərinin Palata qarşısında yaratdığı öhdəlikləri yerinə yetirmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə əlaqədar tədbirlərin davam etdirilməsi məqsədilə auditorların Beynəlxalq Audit Standartlarının (BAS) 2012-ci il versiyası ilə təmin olunmasını təşkil etsinlər.
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, peşə fəaliyyətlərində Auditorlar Palatasının tam hüquqlu üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) təsdiq etdiyi əlavə və dəyişikliklər nəzərə alınmaqla Beynəlxalq Audit Standartlarının (BAS) 2012-ci il versiyasının tətbiqini təmin etsinlər.
3. Beynəlxalq Audit Standartlarının (BAS) tətbiqindən irəli gələn vəzifələrin auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər) çərçivəsində həlli məqsədəmüvafiq hesab edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditorlar Palatası Aparatının rəhbərinin müavini C.Axundova, Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi, Keyfiyyətə nəzarət Komitəsinin sədri M.Abbasova, "HLB Azərbaycan" MMC direktoru, Keyfiyyətə nəzarət Komitəsinin sədr müavini İ.Bayramova tapşırılsın ki, Beynəlxalq Audit Standartlarının (BAS) 2012-ci il versiyasının tətbiqi üzrə seminarların keçirilməsini təmin etsinlər.
5. Auditorlar Palatasının Metodik Komissiyasına (N.Talıbov) və müvafiq struktur bölmələrin rəhbərlərinə tapşırılsın ki, Beynəlxalq Audit Standartlarına (BAS) edilən dəyişikliklərin Azərbaycan dilinə tərcümə edilməsi istiqamətində fəaliyyətini daha da gücləndirsinlər.
6. Bu qərar Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**